Ədalət.- 2018.- 10 iyul.- S.7



Aynur Yasəmən

## CƏNAB KOMANDİR

Bir haray çək şəhidlərdə oyansın,
Əvvəlki tək ön sırada dayansın.
Nifrətindən düşmən qana boyansın,
Qarabağ tərəflərə yol aç, cənab komandir.

Qisasını siz alın qeyrətli şəhidlərin,
Üzü gülsün cavankən dul qalan gəlinlərin.
Qələbə nəgmələri oxusun körpələrin,
Qarabağ tərəflərə yol aç, cənab komandir.

Həsrət susuzluğundan yanan dodaqlar ilə,
Öpək vətən torpağın, götürək gilə-gilə.
Şığı düşmən üstünə, aman vermə qatilə,
Qarabağ tərəflərə yol aç, cənab komandir.

Əsir qalan torpağı yağıdan almaq üçün,
Şuşada, Xankəndində qələbə çalmaq üçün.
Qarabağtək cənnətdə əbədi qalmaq üçün,
Qarabağ tərəflərə yol aç, cənab komandir.

Qurban olum həsrəti, kədəri sona yetir,
Xalqın yaraların sar, torpağın geri gətir.
Bu niskili, bu qəmi sonlandır artıq, bitir,
Qarabağ tərəflərə yol aç, cənab komandir.

## ƏSGƏRİM

Azərbaycan azərinin yurdudur,
Ona keşik çəkən məğrur ordudur.
Əzəldən şöhrətli odlar yurdudur,
Odunu sönməyə qoyma, əsgərim.

Dayan keşiyində daim vüqarlı,
Qarabağ gözləyir, qəlbi qübarlı.
Elimin torpağı olub qabarlı,
Torpağı bölməyə qoyma, əsgərim.

Yaz gəlib, o yerlər laləzar olub,
Meşəsi, çəməni gülizar olub.
Çiçəyi yağıdan lap bezar olub,
Bu qədər dözməyə qoyma, əsgərim.

Bayraqdan qanad tax, qalx asimana,
Həzrət Əli nurun versin simana.
Bəlkə namərd gələ dinə, imana,
Köçkünü bezməyə qoyma, əsgərim.

Yurd-yuvamın havasına möhtacam,
Torpağı al, səcdəsində duracam.
Dizlərimi yollarında yoracam,
Ümidi üzməyə qoyma əsgərim.
Bu köçkün bacına qıyma əsgərim.

## NEYNƏSİN

Baharın müjdəsini,
Gətiribdi qaranquş.
Yurddan perik düşmüşük,
Yurdda ağadı bəyquş.
Bülbül qəfəsdə qalıb,
Cəh-cəh vurur qaraquş.
Ellərə novruz gəlib,
Mənim elim neynəsin.

Nərgizim açılmayır,
Tumurcuqdu o eldə.
Bənövşəm boynun büküb,
Min iztirab belində.
Novruz gülün don vurub,
Bu bayram günlərində.
Ellərə novruz gəlir,
Qarabağım neynəsin.

Baxça bağı kol basıb,
Təmizləyən oğul yox.
Süfrələr bəzənməyir,
Kosaya bir  noğul yox.
Kosa, keçəl yasdadı,
Danışmağa nağıl yox.
Ellərə novruz gəlir,
Əsir torpaq neynəsin.

Uca ALLAH yurdumu,
Sən özün xilas eylə.
Göndər haqq qılıncını,
Düşmənin bağrın teylə.
Bu naəlac millətin,
Əlacını sən söylə.
Ellərə novruz gəlir,
Didərginlər neynəsin.

Qaysaq tutmuş yaralar,
Açılır göz-göz olur.
Qərib oldum vətəndə,
Ürəyim köz-köz olur.
Yurdumu istədikcə,
Kəlmələr döz-döz olur.
Ellərə novruz gəlir,
Qərib evlər neynəsin.

Qışın qar xırmanıdı,
Qarabağın hər gülü.
Vətənim xəstə yatır,
İki gözü mürgülü.
Baxçalar qübar dolu,
Quruyubdu tər gülü.
Ellərə novruz gəlir,
Köçkün ellər neynəsin.

## SƏNİ SEVİRƏM

Yoluna xalıdı qıvrılan saçım,
Yolunu gözləyir süzgün baxışım.
Səninlə yaşlanım ağarsın başım,
Sevginə qul olub səni sevirəm.

Adındır hər yerdə qarşıma çıxan,
Qarışıb qanıma, damarda axan.
Baxıram güzgüyə, əksimdən baxan,
Gözümdə canlanan səni sevirəm.

ALLAH yaratdığı iki quluq biz,
Qəlbi də, ruhu da  verdi tərtəmiz.
Eşqimə şahiddi dalğalı dəniz,
Aləm şahid olsun, səni sevirəm.

Hər kəlmən şirindi, söhbətin məzə,
Yalvardım tanrıya qıymasın bizə.
Bizim eşq dünyamız gəlməsin gözə,
Əsliyəm, Leyliyəm, səni sevirəm.

Hər kəsi silmişəm, sənsən dayağım,
Yalnız yönəlibdi sənə marağım.
Ömrümə nur verən, parlaq çırağım,
Üzü nurlum, yalnız səni sevirəm.

## SƏNSİZLİK ÜŞÜTDÜ MƏNİ

Bu gecə sənsizlik üşütdü məni
Səsin də bir azca soyuq gəlirdi
Saki sərt dağların dumanı çəni
Otağıma soyuq qarı gətirdi.

Üşdüm üşüdüm dondum bu gecə,
İsinə bilmədim sənin sevgindən.
Ağladım gizlicə susdum gizlicə,
Yatağım da bezdi dərdim əlindən.

Körpə uşaq kimi ana istədim,
Girim qucağına ovutsun məni.
Xəyalən də olsa qayğı gözlədim,
Kiçiklik çağımtək qorusun məni.

Sənsizlik körğəmi basıb bağrıma,
Düşmüşük dənizin sahilinə biz.
Gəzirik sakitcə əl ələ verib,
Bizisə seyr edir dalğalı dəniz.

Sahilə yazıram adını sənin,
Dalğa şıltaqlaşır yuyur aparır.
Mənə bəxş etdiyin sevgi kəmərin,
Dalğasıyla sanki çəkir qoparır.

Mənsə vuruşuram dənizlə suyla,
Nəfəsim kəsilir boğuluram mən.
Ayıldım yuxudan qorxu xofuyla.
Yenə də otağı bürüdü dərd-qəm.